# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**YAP ilə Çin Kommunist Partiyası arasında əməkdaşlıq məsələləri müzakirə olunub**



4

## "Ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətləri qurulub"

2



*Prezident İlham Əliyev Slovakiya Milli Şurası sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

SƏS

№ 037 (7447)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

15 may 2026-cı il.
Qiymət 1 manat

# Dünyanın diqqəti yenidən Bakıda!




5

**Günümüzdə hansı sahələr daha gəlirlidir?**



4

**Özəl xəstəxanalarda qiymətləri kim və necə müəyyən edir? - ŞOK FAKTLAR!**



8

**Tarixin amansız soyqırımları**



6

## ETX kiberdələduzluq cəhdləri ilə bağlı xəbərdarlıq edib



7

## Tramp Çini Putindən və İrandan "qoparmağa" çalışır...



5

# “Ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətləri qurulub”

**Prezident İlham Əliyev Slovakiya Milli Şurası sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib**

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Slovakiya Respublikası Milli Şurasının sədri Rixard Raşinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Prezident İlham Əliyev ötən il Slovakiyaya rəsmi səfəri çərçivəsində keçirdiyi görüşləri, o cümlədən Rixard Raşi ilə görüşünü məmnunluqla xatırladı.***



Müxtəlif sahələri əhatə edən əməkdaşlığımızın inkişafını vurğulayan dövlətimizin başçısı qarşılıqlı hörmətə, dostluğa və tərəfdaşlığa əsaslanan ikitərəfli əlaqələrimizin genişlənməsində parlamentlərimiz arasındakı münasibətlərin roluna toxundu. Prezident İlham Əliyev Rixard Raşinin böyük nümayəndə heyəti ilə ölkəmizə səfərə gəlməsinin önəmini qeyd edərək bildirdi ki, bu, tərəfdaşlığımızın daha bir göstəricisidir. Qəbula görə nümayəndə heyəti adından minnətdarlığını ifadə edən qonaq dövlətimizin başçısı ilə görüşdən şərəf hissi keçirdiklərini dedi. Rixard Raşi Azərbaycan Prezidentinə Slovakiyaya ilk rəsmi səfər etdiyinə görə minnətdarlığını bildirdi.

Dəfələrlə ölkəmizə səfər etdiyini məmnunluqla xatırlayan qonaq 2022-ci ildə Azərbaycana səfəri çərçivəsində Şuşada olduğunu dedi. O bildirdi ki, bu səfəri əsnasında da Qarabağa gedəcək, orada aparılan bərpa-quruculuq işləri, həmçinin Xankəndidə Qarabağ Universitetinin fəaliyyəti ilə tanış olacaq. Rixard Raşi Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə əlaqədar əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev sülhün gücləndirilməsi üçün ölkəmiz tərəfindən görülən tədbirlərdən danışdı, Azərbaycandan Ermənistana neft məhsullarının ixracı da daxil olmaqla ölkələrimiz arasında ticarət münasibətlərinin yaradıldığını dedi. Söhbət zamanı Azərbaycanla Slovakiya arasında strateji tərəfdaşlıq münasibətlərinin qurulduğu vurğulanaraq, siyasi əlaqələrimizin yüksək səviyyədə olduğu qeyd edildi.

Slovakiya şirkətlərinin Ağdamın Baş Qərvənd kəndinin yenidən qurulmasında iştirakına toxunularaq, bunun Azərbaycan-Slovakiya dostluğunun göstəricisi olduğu vurğulandı.

Görüşdə beynəlxalq parlamentlərarası təsisatlar çərçivəsində əməkdaşlıq müzakirə olundu, iqtisadi-ticari, enerji, müdafiə sənayesi, təhsil, humanitar, müasir texnologiyalar, mədəniyyət, idman, turizm və digər sahələrdə əlaqələrin genişləndirilməsi məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı. Tezliklə Bakı ilə Bratislava arasında birbaşa uçuşların həyata keçiriləcəyi bildirilərək, bunun turizm və insanlararası təmasların genişlənməsinə töhfə verəcəyi qeyd olundu.

# YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri davam edir







***Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Pekində Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) üzvü, Partiya Məktəbinin birinci prorektoru, nazir Si Çuntao ilə görüşü keçirilib.***

Görüşdə iki ölkənin liderləri tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan-Çin münasibətlərinin bütün sahələrdə yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğu qeyd edilib. Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında Əməkdaşlıq memorandumundan irəli gələn vəzifələrin bugünədək uğurla yerinə yetirildiyi, qarşılıqlı hörmət və etimada əsaslanan səmərəli işbirliyinin inamla davam etdirildiyi bildirilib. İstər Azərbaycan, istərsə də Çində gənclərlə siyasi-ideoloji işin xüsusi diqqət mərkəzində saxlanıldığı qeyd edilib. Gənclərin ictimai-siyasi həyatda, eləcə də dövlət idarəçiliyində və partiya fəaliyyətində aktiv iştirakının önəminə toxunularaq bu sahədə ixtisaslaşmış təhsil müəssisələri arasında əməkdaşlığın vacibliyi vurğulanıb.

Görüş zamanı Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) ilə ÇKP MK Partiya Məktəbi arasında Anlaşma Memorandumunun imzalanması mərasimi keçirilib. Memorandumu ÇKP MK Partiya Məktəbinin birinci prorektoru Si Çuntao və DİA-nın rektoru, akademik Urxan Ələkbərov imzalayıblar.

Memorandumda əksini tapmış müddəaların icrasının tərəflər arasında qarşılıqlı maraq doğuran sahələr üzrə təcrübə mübadiləsini təmin etməklə dövlət idarəçiliyi, strateji planlaşdırma və kadr hazırlığı sahəsində mühüm nailiyyətlərə yol açacağına inam ifadə olunub.

Nümayəndə heyətinin Çin Sosial Elmlər Akademiyasının vitse-prezidenti, nazir Pin Cinhuy ilə görüşündə isə hər iki ölkədə elm və təhsilin inkişafının dövlət siyasətinin əsas prioritetlərindən biri olduğu vurğulanıb, bu istiqamətdə beynəlxalq əməkdaşlığın önəminə diqqət çəkilib. Elmi-tədqiqat institutları arasında əlaqələrin genişləndirilməsi, birgə araşdırmaların aparılması, akademik mübadilə proqramlarının təşviqi, eləcə də sosial elmlər sahəsində qarşılıqlı təcrübə paylaşımının artırılması ilə əlaqədar fikir mübadiləsi aparılıb.

Bundan sonra YAP nümayəndə heyətinin Çin Arxeoloji Muzeyinə ekskursiyası təşkil edilib. Sosial Elmlər Akademiyasının vitse-prezidenti Cao Ruy ilə keçirilən görüşdə tarix elminin qarşılaşdığı yeni çağırışlar fonunda rəqəmsallaşma və süni intellekt texnologiyalarının elmi-tədqiqat prosesinə inteqrasiyası, tarixi irsin qorunması, elmi nəşrlərin qarşılıqlı mübadiləsi, ortaq layihələrin hazırlanması, eləcə də alimlər və tədqiqatçılar arasında birbaşa əlaqələrin qurulması istiqamətində əməkdaşlıq imkanları nəzərdən keçirilib. Səfər çərçivəsində nümayəndə heyəti Konfutsi məbədini də ziyarət edib.



***Türkdilli ölkələrin vahid platformada birləşməsi bu ölkələr arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlıq əlaqələrinə yeni imkanlar açıb. Qloballaşma meyillərinin gücləndiyi müasir dövrdə tarixi köklərə bağlı olan Türk dövlətləri sarsılmaz birlik nümayiş etdirirlər ki, bu da ziddiyyətlərlə dolu olan bir dünyamızda böyük əhəmiyyət kəsb edir. Türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Son illərdə Türk dövlətləri arasında əlaqələr bütün sahələrdə intensiv xarakter alıb və dövrün tələblərinə, baş verən proseslərə uyğun olaraq sürətlə inkişaf etdirilir. Azərbaycan türk dövlətləri arasında əməkdaşlığın dərinləşməsi prosesində aparıcı rola malik ölkələrdəndir. Belə ki, türk dövlətlərinin inteqrasiyası üçün fəal siyasi təşəbbüslərlə çıxış edir, iqtisadi maraqların uzlaşdırılması məqsədilə koordinasiyanın formalaşmasını gerçəkləşdirir.***




# Bu gün Türküstanda TDT Zirvə görüşü keçiriləcək

## *Prezident İlham Əliyev: "Hər bir Zirvə görüşü birliyimizin gücləndirilməsinə istiqamətlənmiş növbəti addım olur"*

Mayın 15-də Qazaxıstanın və bütün türk sivilizasiyasının ən qədim şəhərlərindən biri olan Türküstanda Türk Dövlətləri Təşkilatı (TDT) Dövlət Başçıları Şurasının qeyri-rəsmi Zirvə görüşü keçiriləcək. Türküstanın təşkilata üzv dövlətlərin liderlərinin daha bir görüşü üçün adi məkan deyil, həm də Türk dünyasının möhkəmlənməsində yeni bir mərhələnin rəmzi olacağı gözlənilir. Sürətli geosiyasi transformasiyalar fonunda TDT Avrasiyada tədricən siyasi, iqtisadi, humanitar və texnoloji qarşılıqlı əlaqə üçün mühüm mərkəzə çevrilir.

TDT-nin qeyri-rəsmi Zirvə görüşləri türk dövlətləri arasında siyasi etimadın, strateji koordinasiyanın və ortaq gündəliyin hazırlanmasının gücləndirilməsi nöqteyi-nəzərindən təsirli bir mexanizm olduğunu artıq sübut edib. Məhz bu kontekstdə Türküstanda keçiriləcək Zirvə görüşü Türk dünyasının birliyinin, qarşılıqlı əlaqəsinin və ortaq gələcəyinin gücləndirilməsinə yönəlmiş kursun davamı kimi müstəsna əhəmiyyətə malikdir. Bu kurs iki il əvvəl Azərbaycanın mədəniyyət paytaxtı Şuşada effektiv şəkildə müəyyən edilib.

Qazaxıstanın Türküstan şəhəri türk xalqlarının tarixi yaddaşında mühüm yer tutur. Bu şəhər Türk dünyasının əsas mənəvi və mədəni mərkəzlərindən biridir və görkəmli mütəfəkkir, sufi filosofu və türk sivilizasiyasının formalaşmasına misilsiz təsiri olan mənəvi müəllim Xoca Əhməd Yəsəvinin irsi ilə sıx bağlıdır. Türküstan əsrlər boyu mənəvi birlik, mədəni mübadilə və türk xalqları arasında ortaq sivilizasiya kimliyinin formalaşması məkanı olaraq qalıb. Bu gün həmin tarixi rəmz yeni siyasi və strateji meyar qazanır.

Türküstanda Türk Dövlətləri Təşkilatının Zirvə görüşünün keçirilməsi üzv ölkələrin inteqrasiyanı təkcə praqmatik maraqlar üzərində deyil, həm də dərin mədəni və tarixi təməl üzərində qurmaq istəyini vurğulayır.

### "TÜRK DÖVLƏTLƏRİ İLƏ ƏLAQƏLƏRİMİZ PRİORİTET İSTİQAMƏT KİMİ MÜƏYYƏN OLUNUB"

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, "Türk dünyasının birləşməsi istiqamətində ölkələrimiz böyük səylər göstərirlər. Bildiyiniz kimi, Azərbaycanın xarici siyasətinin prioritetlərinin müəyyən edilməsi zamanı Türk dünyasının gücləndirilməsi, Türk dövlətləri ilə əlaqələrimiz prioritet istiqamət kimi müəyyən olunub". Prezident "Bizim ailəmiz Türk dünyasıdır, bizim başqa ailəmiz yoxdur", - deyərək bildirib ki, əslində, bu, ölkəmizin bu istiqamətdəki siyasətini açıq şəkildə büruzə verir: "Şadam ki, son illər ərzində Türk Dövlətləri Təşkilatı xətti ilə aparılan işlər birliyimizi daha da gücləndirir".

Bildiyiniz kimi, Azərbaycan Prezidentinin təşəbbüsü ilə Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü keçirildi. Dövlət başçımızın çıxışlarının birində bildirdiyi kimi, "Hər bir Zirvə görüşü birliyimizin gücləndirilməsinə istiqamətlənmiş növbəti addım olur. Çox şadam və həmkarlarıma minnətdaram ki, onlar bu təşəbbüsü dəstəkləyiblər". Şuşa şəhərində keçirilən qeyri-rəsmi Zirvə görüşün əsas mövzuları nəqliyyat və iqlimlə bağlı oldu. "Çünki bu gün nəqliyyat əlaqələrinin qurulması və genişləndirilməsi Türk dünyasının birləşməsi ilə sıx bağlı olan prosesdir", – deyə Prezident bildirmişdir. Görüşdən sonra nəqliyyat və logistika əlaqələrinin, əsasən, Asiya və Avropa arasında Orta Dəhlizin daha da inkişaf etdirilməsi kursunu müəyyən edən Qarabağ Bəyannaməsi imzalandı. Bu sənəddə TDT daxilində iqtisadi inteqrasiyanın dərinləşdirilməsi, birgə infrastruktur və investisiya layihələrinin dəstəklənməsi, enerji, rəqəmsallaşma və iqlim siyasəti sahələrində əməkdaşlıq, Türk dünyasının mədəni və humanitar birliyinin gücləndirilməsi, üzv dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə dəstək verilməsi və TDT-nin regional təşkilat kimi beynəlxalq rolunun artırılması nəzərdə tutulur. Şuşa Zirvə görüşü əhəmiyyətli tarixi hadisəyə və türk inteqrasiyasının yeni mərhələsinin rəmzinə çevrildi. Zirvə görüşünün erməni işğalından azad edildikdən sonra bərpa olunan Şuşada keçirilməsi dərin siyasi, simvolik və sivilizasiya əhəmiyyətinə malik idi. Bu, türk dövlətləri arasında həmrəyliyin rəmzi və Cənubi Qafqazda dəyişən geosiyasi reallıqdan sonra regional əməkdaşlığın yeni mərhələsinin təsdiqi oldu.

### "SÜNİ İNTELLEKT VƏ RƏQƏMSAL İNKİŞAF"

Builki Zirvə görüşünün "Süni intellekt və rəqəmsal inkişaf" mövzusu Türk Dövlətləri Təşkilatının hazırkı inkişaf mərhələsinin fərqli bir xüsusiyyətidir. Bu, əsasən, siyasi və mədəni inteqrasiyadan texnoloji və innovativ qarşılıqlı əlaqəyə keçiddir. Mövzu XXI əsrdə dövlətlərin rəqabət qabiliyyətinin yalnız resurslar və coğrafiya müstəvisində deyil, həm də texnoloji inqilaba uyğunlaşma qabiliyyəti ilə müəyyən edildiyi anlayışı əks etdirir. Azərbaycan öz rəqəmsal ekosistemini fəal şəkildə inkişaf etdirir və tədricən Türk Dövlətləri Təşkilatı regionunda əsas texnologiya mərkəzinə çevrilir, həmçinin iqtisadiyyatı dəyişdirmək və dövlət idarəçiliyinin səmərəliliyini artırmaq üçün süni intellekt (AI) və rəqəmsallaşmaya diqqət yetirir. Ölkə 2025-2028-ci illər üçün beş əsas sahəni - AI tənzimlənməsi, insan resurslarının təlimi, data infrastrukturunun inkişafı, elmi tədqiqatlar və beynəlxalq əməkdaşlığı ehtiva edən genişmiqyaslı AI strategiyası həyata keçirir.

2025-ci il sentyabrın 8-də də Bakıda Süni İntellekt Akademiyasının açılışı bu istiqamətdə atılan mühüm addım oldu. Ortaq Süni İntellekt İnstitutunun yaradılması Türk dünyasında əməkdaşlığı keyfiyyətcə yeni səviyyəyə qaldıra, Türk Dövlətləri Təşkilatını təkcə siyasi və iqtisadi birliyə deyil, həm də Avrasiyanın intellektual və texnoloji mərkəzlərindən birinə çevirə bilər.

2026-cı il Türk Dövlətləri Təşkilatı üçün əlamətdar ildir. Türküstanda keçiriləcək qeyri-rəsmi Zirvə görüşü və Türkiyədə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Zirvə görüşü ilə yanaşı, bu il 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultayın bir əsrlik yubileyi qeyd olunur. Bu tədbirlərin tarixi, həmçinin dərin simvolik əhəmiyyəti var, çünki Türk dünyasını təkcə coğrafiya və siyasət deyil, həm də ortaq intellektual yaddaş birləşdirir.

Birinci Türkoloji Qurultay bütün Türk dünyası üçün XX əsrin ən vacib intellektual hadisələrindən birinə çevrildi. Mərkəzi Asiyadan Anadoluya qədər müxtəlif türk bölgələrindən olan alimlər, dilçilər, tarixçilər və maarifçilər Bakıda toplaşdılar. Məhz həmin vaxt müasir dövrdə ilk dəfə olaraq Türk dünyası ortaq mədəni, linqvistik və intellektual məkanını sistemli şəkildə müzakirə etməyə başladı. Qurultay türk xalqlarının yaxınlaşmasına, mədəni qarşılıqlı əlaqənin güclənməsinə və müştərək humanitar məkanın formalaşmasına töhfə verdi.

Bu gün 1926-cı il qurultayı Türk dünyasının müasir inteqrasiyasının tarixi təməli və Türk Dövlətləri Təşkilatının intellektual sələfi, həmçinin türk həmrəyliyi ideyasının müjdəçisi kimi qəbul edilir.

Xüsusi olaraq qeyd edək ki, əməkdaşlığın dərinləşməsi fonunda ortaq türk əlifbası ideyası yeni məna kəsb edir. Bu gün ortaq əlifba sadəcə texniki ünsiyyət vasitəsi kimi deyil, həm də XXI əsrdə Türk dünyasının mədəni və humanitar birliyinin rəmzi olaraq qəbul edilir. Azərbaycan bu prosesdə mərkəzi rol oynayır, müstəqillik qazandıqdan sonra postsovet türk dövlətləri arasında latın qrafikasını tam qəbul edən və dil islahatlarını uğurla həyata keçirən ilk ölkə olub. Azərbaycanın təcrübəsi cəmiyyətin yeni yazı sisteminə uyğunlaşması üçün uğurlu bir model kimi qəbul edilir.

2024-cü ilin sentyabr ayında Bakıda keçirilən Türk Dünyası Ortaq Əlifba Komissiyasının iclası xüsusi qeyd olunmalıdır. Həmin tədbirdə türk ölkələrinin nümayəndələri Türk Akademiyasının iştirakı ilə 34 latın hərfinə əsaslanan ortaq əlifba layihəsi üzərində razılığa gəldilər. Bu proses vahid humanitar məkanın formalaşdırılması, mədəni əməkdaşlığın gücləndirilməsi və türk xalqları arasında təhsil sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi baxımından strateji əhəmiyyətə malikdir.Bildiyimiz kimi, türk dövlətlərinin regionda sabitliyin və sülhün qorunub saxlanılmasında rolu getdikcə artır. Ümumilikdə türk dövlətləri arasında əlaqələr bütün sahələrdə uğurla inkişaf edir. Türk dünyasında müasir əməkdaşlıq adi dövlətlərarası qarşılıqlı əlaqələrin əhatə dairəsindən çox-çox kənara çıxır. Müasir dünyada türk birliyi təkcə ortaq keçmişə deyil, həm də gələcəyə hədəflənən inkişaf yolundadır.

***Zümrüd BAYRAMOVA***

# YAP ilə Çin Kommunist Partiyası arasında əməkdaşlıq məsələləri müzakirə olunub





***Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasına səfəri çərçivəsində Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Haysin ilə görüşüb.***

Görüşdə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin siyasi iradəsi sayəsində ildən-ilə möhkəmlənərək hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksələn münasibətlərin hər iki ölkənin maraqlarına cavab verdiyi vurğulanıb.

Azərbaycan ilə Çinin müstəqil siyasət yürüdən dost ölkələr kimi bir-birinin mənafelərinin qorunmasına xüsusi diqqət yetirdikləri bildirilib. Beynəlxalq hüququn təməlində dayanan ərazi bütövlüyü və suverenlik prinsiplərini əsas götürən Azərbaycanın Vahid Çin siyasətinə qətiyyətli dəstəyinin əhəmiyyəti vurğulanıb. Öz növbəsində, Birləşmiş Millətlər Təşkilatının beş daimi üzvündən biri olan Çinin Azərbaycanın ədalətli mövqeyini müdafiə etməsinin etibarlı tərəfdaşlıq örnəyi kimi böyük dəyərə malik olduğu qeyd edilib.

Yüksəksəviyyəli siyasi dialoq və intensiv diplomatik təmaslar fonunda iqtisadi-ticari, nəqliyyat-logistika, energetika, o cümlədən yaşıl enerji, elm, təhsil, innovativ texnologiyalar, mədəni, humanitar və digər sahələri əhatə edən çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsinin strateji prioritet kimi dövlət başçılarının xüsusi diqqət mərkəzində olduğu bildirilib.

Çinin qlobal əhəmiyyətli “Bir kəmər, bir yol” təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biri olan Azərbaycanın Asiya ilə Avropa arasında əlverişli coğrafi mövqeyindən və tranzit imkanlarından səmərəli istifadənin Orta Dəhlizin inkişafına təkan verdiyi vurğulanaraq ölkəmizin Zəngəzur dəhlizi layihəsinin yeni platforma kimi Avrasiyada dayanıqlı sülhə, etibarlı təhlükəsizliyə və çoxtərəfli işbirliyinə hədəfləndiyi qeyd olunub.

Çoxqütblü dünya nizamına transformasiya şəraitində Azərbaycan-Çin hərtərəfli strateji tərəfdaşlığının təkcə iki ölkə arasında əlaqələrin inkişafı baxımından əlamətdar olmadığı, eyni zamanda, Avrasiyada, o cümlədən Qlobal Cənub coğrafiyasında davamlı və qarşılıqlı faydalı əməkdaşlığın təşviqi üçün mühüm əhəmiyyət daşıdığı bildirilib.

Beynəlxalq hüququn böhranı fonunda Azərbaycanın Cənubi Qafqazda həyata keçirdiyi sülh quruculuğunun önəminə diqqət çəkilib.

Görüşdə nümayəndə heyətlərinin mütəmadi səfərlərinin ölkələr və siyasi partiyalar arasında münasibətlərin mövcud vəziyyətinin qiymətləndirilməsi və işbirliyinin əhatə dairəsinin genişləndirilməsi xüsusunda önəmi vurğulanıb.

2024-cü ilin noyabr ayında Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında Əməkdaşlıq memorandumunun imzalanmasının əhəmiyyəti diqqətə çatdırılaraq məqsədyönlü birgə fəaliyyətin ənənəvi dostluq münasibətlərinin möhkəmlənməsinə və müştərək maraqların təmininə xidmət etdiyi bildirilib. Partiya diplomatiyasının qarşıda duran hədəflərin gerçəkləşməsinə bundan sonra da töhfə verəcəyinə əminlik ifadə olunub. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərlə əlaqədar fikir mübadiləsi aparılıb.

# Günümüzdə hansı sahələr daha gəlirlidir?

***Müasir dövrdə hansı sahələrin daha gəlirli olması sualı bir çox insanı düşündürür. Çünki texnologiyanın sürətli inkişafı, insanların həyat tərzinin dəyişməsi və yeni tələbatların yaranması bəzi peşələri və biznes istiqamətlərini əvvəlkindən daha qazancılı edib. Artıq yalnız ənənəvi peşələr deyil, rəqəmsal dünyaya uyğunlaşan və yenilənən sahələr daha çox gəlir gətirir. SİA mövzu ilə bağlı araşdırma edib.***



Hazırda ən sürətlə inkişaf edən və yüksək qazanc imkanları yaradan sahələrin başında informasiya texnologiyaları gəlir. Proqramlaşdırma, süni intellekt, kibertəhlükəsizlik, data analitikası və mobil tətbiq hazırlanması kimi istiqamətlər həm dünyada, həm də Azərbaycanda böyük tələb görür. Xüsusilə uzaqdan işləmə imkanlarının artması bu sahədə çalışan insanların xarici şirkətlərlə əməkdaşlıq etməsinə və daha yüksək gəlir əldə etməsinə şərait yaradır. Süni intellektin inkişafı isə gələcəkdə bu istiqamətin daha da böyüyəcəyini göstərir.

Rəqəmsal marketinq və sosial media sahəsi də son illərdə ən gəlirli istiqamətlərdən birinə çevrilib. Şirkətlər artıq müştərilərini televiziyadan çox sosial platformalarda axtardığı üçün SMM, reklam idarəçiliyi, video montaj, kontent yaradılması və brendinq sahələrinə maraq artıb. Xüsusilə Instagram, TikTok və YouTube üzərindən fəaliyyət göstərən şəxslər reklam əməkdaşlıqları və satış hesabına ciddi gəlir əldə edə bilirlər. Bu gün sosial şəbəkələr artıq təkcə əyləncə vasitəsi deyil, həm də böyük biznes platforması hesab olunur.

Tibb və sağlamlıq sektoru da daim gəlirli sahələr arasında qalır. İnsanların sağlamlıq və görünüşə daha çox diqqət ayırması estetik tibb, stomatologiya, fizioterapiya, psixologiya, dietologiya və kosmetologiya kimi sahələrin inkişafını sürətləndirib. Xüsusilə onlayn konsultasiya xidmətlərinin yayılması bu sahədə çalışan mütəxəssislərin fəaliyyət imkanlarını daha da genişləndirib.

Tikinti və daşınmaz əmlak sektoru da uzun illərdir yüksək gəlir gətirən sahələrdən sayılır. Şəhərləşmənin artması, yeni yaşayış komplekslərinin tikilməsi və interyer dizayna marağın çoxalması bu istiqamətdə böyük bazar formalaşdırıb. Mənzil satışı, təmir xidmətləri, memarlıq və dizayn sahələri xüsusilə yüksək qazanc potensialına malikdir. Lakin bu sahədə uğur qazanmaq üçün düzgün bazar araşdırması və peşəkar yanaşma vacibdir.

Elektron ticarət və onlayn satış sahəsi isə son dövrlərdə sürətlə böyüyən biznes istiqamətlərindən biridir. İnsanlar artıq alış-verişin böyük hissəsini internet üzərindən etdiyi üçün onlayn mağazalar, marketplace satışları və xaricdən məhsul gətirərək satış etmək geniş yayılıb. Xüsusilə geyim, kosmetika, uşaq məhsulları və ev aksesuarları bu sahədə ən çox gəlir gətirən məhsullar sırasındadır.

Bununla yanaşı kənd təsərrüfatı da yenidən diqqət çəkən gəlirli sahələrdən birinə çevrilir. Orqanik məhsullara marağın artması istixana biznesi, arıçılıq, quşçuluq və aqroturizm kimi istiqamətləri daha perspektivli edib. İnsanların təbii və sağlam qidaya üstünlük verməsi bu bazarın inkişafına ciddi təsir göstərir. Təhsil və onlayn kurs sektoru da son illərdə sürətlə böyüyür. Artıq insanlar yeni bacarıqları öyrənmək üçün yalnız ənənəvi təhsil müəssisələrinə deyil, onlayn platformalara da üz tutur. Dil kursları, proqramlaşdırma, dizayn, məktəbəqədər hazırlıq və şəxsi inkişaf mövzuları üzrə kurslar böyük maraq görür. Sosial media üzərindən dərs keçən və onlayn kurs hazırlayan şəxslər də yüksək gəlir əldə edə bilirlər.

Gələcəyin ən perspektivli sahələrindən biri isə alternativ enerji və “yaşıl texnologiyalar” hesab olunur. Günəş enerjisi, elektrik avtomobilləri və enerji qənaətinə yönəlmiş texnologiyalar yaxın illərdə daha böyük bazara sahib olacaq. Dünya artıq ekoloji təmiz və davamlı enerji mənbələrinə keçid etməyə çalışdığı üçün bu istiqamətdə çalışan mütəxəssislərə ehtiyac artır. Əslində ən gəlirli sahə yalnız çox qazandıran sahə deyil. Ən vacib məqam insanın öz bacarığına, marağına və inkişaf etdirə biləcəyi istiqamətə uyğun seçim etməsidir. Çünki müasir dövrdə uğur təkcə diplomla deyil, daim yenilənmək, yeni bacarıqlar öyrənmək və dəyişən dünyaya uyğunlaşmaqla əldə olunur.

***Ayşən Vəli***

ARAŞDIRMA

# Dünyanın diqqəti yenidən Bakıda!

*Ölkəmizdə beynəlxalq tədbirlərin təşkili Azərbaycan dövlətinin sülhsevər olduğunu və multikulturalizm siyasətini bir daha dünya ictimaiyyətinə təqdim edir. Beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi üçün ölkəmizə olan etimad Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınmasının göstəricisidir.*




Eyni zamanda, bütün bu tədbirlər Azərbaycanın gücünü, potensialını və təşkilatçılıq qabiliyyətini bir daha nümayiş etdirir. Beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi edən Azərbaycan bir neçə gündən sonra dünyanın ən böyük şəhərsalma platformalarından biri olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) ev sahibliyi edəcək. Bu tədbir yalnız şəhərsalma məsələlərinin müzakirə olunduğu beynəlxalq forum deyil, eyni zamanda, Azərbaycanın müasir inkişaf modelinin, təşkilatçılıq bacarığının və dayanıqlı inkişaf strategiyasının təqdimidir. Bu, həm də Azərbaycanın beynəlxalq tədbirlərin təşkili sahəsində formalaşdırdığı peşəkar yanaşmanın davamı kimi qiymətləndirilir. Son illərdə ölkəmiz Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Qoşulmama Hərəkatının Zirvə Toplantısı, COP29 kimi mötəbər tədbirlərə uğurla ev sahibliyi etməklə beynəlxalq ictimaiyyətin etimadını qazanıb.

### "HƏR KƏS ÜÇÜN YAŞAYIŞ YERLƏRİ: TƏHLÜKƏSİZ VƏ DAYANIQLI ŞƏHƏRLƏR VƏ YAŞAYIŞ MƏSKƏNLƏRİ"

BMT-nin Məskunlaşma Proqramı və Azərbaycan Hökuməti tərəfindən birgə təşkil olunan forum "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr edilib. Bu mövzu hazırda dünyada sürətlə artan urbanizasiya, iqlim dəyişiklikləri, sosial bərabərlik və təhlükəsiz yaşayış mühiti kimi qlobal çağırışların fonunda xüsusi aktuallıq daşıyır. Forum çərçivəsində şəhərlərin gələcəyi, ekoloji dayanıqlılıq, rəqəmsal transformasiya, sosial inklüzivlik, nəqliyyat infrastrukturu və "ağıllı" idarəetmə modelləri geniş müzakirə ediləcək. İndiyədək 180 ölkədən 32 mindən çox iştirakçının qeydiyyatdan keçməsi forumun qlobal əhəmiyyətini göstərməklə yanaşı, Bakının beynəlxalq tədbirlər üçün etibarlı və müasir məkan kimi qəbul edildiyini də təsdiqləyir. Dünyanın müxtəlif ölkələrindən dövlət və hökumət nümayəndələrinin, nazirlərin, beynəlxalq təşkilat rəhbərlərinin, şəhərsalma üzrə ekspertlərin, akademik dairələrin, özəl sektor təmsilçilərinin və vətəndaş cəmiyyəti nümayəndələrinin Bakıya gəlməsi Azərbaycan üçün mühüm diplomatik və iqtisadi imkanlar yaradır.

### ƏN BÖYÜK QLOBAL PLATFORMA

Məlumdur ki, BMT-nin Məskunlaşma Proqramının İcraiyyə Şurasının Keniyada keçirilən 3-cü sessiyasında 13-cü Ümumdünya Şəhərsalma Forumunun (WUF13) 2026-cı ildə Bakı şəhərində keçiriləcəyi barədə qərar elan edilmişdi. BMT-nin 2001-ci ildə qəbul edilmiş müvafiq qərarına əsasən, şəhərsalma sahəsində ən mötəbər və genişmiqyaslı iştirakçılığa malik, iki ildən bir dünya şəhərlərindən birində keçirilən bu Forum sürətli urbanizasiya və onun şəhərlərin inkişafına təsirini araşdırmaq məqsədilə ən böyük qlobal platformadır. Ümumdünya Şəhərsalma Forumunun regionumuzda ən irimiqyaslı tədbirlərdən biri olacağını əminliklə söyləmək olar. Tədbir çərçivəsində həm Azərbaycan, həm də xarici ölkələrdən maraqlı tərəflər – dövlət rəsmiləri, QHT-lər, bu sahədə fəaliyyət göstərən mütəxəssislər, ekspertlər, özəl sektorların nümayəndələri bir araya gələcək, geniş fikir mübadiləsi apararaq yeni bilik və təcrübə ilə paylaşmaq imkanını əldə edəcəklər.

Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası – WUF13 çərçivəsində təşkil ediləcək Şəhərsalma Sərgisi (Urban Expo) həm əhatə dairəsi, həm də iştirakçı təşkilatların sayına görə forum tarixinin ən böyük sərgisi olacaq.

WUF13 Şəhərsalma Sərgisində dünyanın 66 ölkəsindən 163-dən çox təşkilat iştirak edəcək. Forumda özəl sektorun iştirakı da rekord səviyyədə olacaq. Belə ki, WUF13-də ümumilikdə 45 şirkət təmsil olunacaq, onların 14-ü isə startapdır. Tədbir çərçivəsində startaplar və innovativ təşəbbüslər üçün xüsusi platforma – Biznes və İnnovasiya Habı (Mərkəzi) ilk dəfə iştirakçıların istifadəsinə veriləcək. WUF13-də dünyanın müxtəlif ölkələrindən 44-dən çox şəhər meri də iştirak üçün qeydiyyatdan keçib.

### AZƏRBAYCANDAKI ƏN BÖYÜK STADİON - BAKI OLİMPİYA STADİONU

Forumun keçiriləcəyi Bakı Olimpiya Stadionu müasir texnoloji imkanlarla təchiz olunub, iştirakçıların təhlükəsizliyi və rahatlığı üçün bütün zəruri infrastruktur qurulub. Qeyd edək ki, Bakı Olimpiya Stadionu Azərbaycandakı ən böyük stadiondur. 2015-də baş tutan Bakı-2015 1-ci Avropa Oyunlarının əsas idman məkanı kimi istifadə edilmişdir və eyni tədbirin açılış və bağlanış mərasimlərinə və atletika idman növünə ev sahibliyi etmişdir. Məkan Azərbaycan Futbol Komandasının oyunlarına və konsertlərə ev sahibliyi edib. AVRO-2020 Avropa Çempionatının qrup və final mərhələsinə ev sahibliyi edib. 2019-cu ildə burada UEFA Avropa Liqasının finalı keçirilib. Bakı Olimpiya Stadionu aralarında "Allianz Arena", "Aviva Stadium", "Nou Kamp" və "Santyaqo Bernabeu" kimi dünyaca məşhur stadionlar olan UEFA-nın Elit Stadionları siyahısına daxil edilib. Xatırladaq ki, WUF13 mayın 17-dən 22-dək Bakıda keçiriləcək və tədbir çərçivəsində şəhərlərin gələcəyi, dayanıqlı inkişaf, iqlim çağırışları, rəqəmsal transformasiya və inklüziv urbanizasiya məsələləri müzakirə olunacaq. Bu tədbirin paytaxtımızda keçirilməsi Azərbaycan hökumətinin şəhərsalma sahəsində apardığı dərin islahatlar, ölkədə uğurla həyata keçirilən genişmiqyaslı layihələr və əldə edilən nailiyyətlər, habelə ölkəmizin bu sahədə qlobal gündəliyə verdiyi töhfələr sayəsində beynəlxalq nüfuzunun ən yüksək səviyyədə olmasının təzahürüdür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Tramp Çini Putindən və İrandan "qoparmağa" çalışır...

***"ABŞ prezidentinin Çinə səfəri kifayət qədər qlobal məsələdir. Çünki bu səfər Donald Trampın Çin barədəki iddialarına, İrana münasibət və ticarət müharibəsinə dair məsələlərə aydınlıq gətirməli idi. Nəzərə alsaq ki, bu səfər çox nadir hallarda rast gəlinən səfərdir, deməli səfərin siyasi və iqtisadi ağırlığı da qaçılmazdır. Əlbəttə, D.Trampın son açıqlamalarına və Çinə apardığı heyətə nəzər salanda ilk hədəfin iqtisadi və ticarət əməkdaşlığı olacağı qaçılmazdır."***



*Mətləb Salahov: "Amma görünən odur ki, rəsmi Pekin nə İran, nə də ticarət "müharibəsi" barəsində mövqelərini dəyişməyəcək"*

Bu barədə SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, xüsusilə son bir ildə Vaşinqton və Pekin arasındakı ticarət müharibəsi, D.Trampın Çin mallarına tətbiq etdiyi embarqolar, sərmayələr əsas danışıqlar mövzusu olub. "Lakin hazırkı ABŞ Administrasiyasını narahat edən məqamlardan biri də Çinin İran daxil olmaqla Yaxın Şərqdəki bir sıra ölkələrlə sürətlə genişlənən münasibətləri, bu bölgədə çoxalmaqda olan Çin bazarı və investisiya gücüdür. Xüsusilə son bir neçə ayda rəsmi Pekinin İrana verdiyi diplomatik və gizli dəstək ABŞ-ı ən çox narahat edən məsələdir. Düzdür, Çinin bu səfərlə hazırkı siyasətindən vaz keçəcəyi qətiyyən gözlənilən deyil. Yəni D.Trampın Çin rəhbərliyini "yumşaltmaq" cəhdlərinin səmərə verəcəyi gözlənilən deyil. Üstəgəl çinlilərin Vladimir Putinlə də münasibətləri sərinləşdirmək fikri də mümkünsüz görünür. Lakin rəsmi Pekin bir sıra məsələlərdə öz strateji maraqları üçün Ağ Ev rəhbəri ilə dil tapmağa çalışır. Yəqin ki, iki ölkə arasındakı razılaşdırılacaq məsələlər tezliklə gün üzünə çıxacaq".

***Afət Tahirqızı***

# Qəsdən adam öldürməyə görə hansı hallarda ömürlük həbs cəzası verilə bilər?

*"Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, qəsdən adam öldürmə əgər 12 (on iki) ildən artıq azadlıqdan məhrum etmə və ya daha ağır cəza nəzərdə tutulmuşsa, xüsusilə ağır cinayət hesab olunur". Bu sözləri SİA-ya açıqlamasında vəkil Fuad Məmmədov deyib.*



*VƏKİL DANIŞDI*

Onun sözlərinə görə, bu, Cinayət Məcəlləsinin 15.5-ci maddəsində birbaşa göstərilmişdir: "Qəsdən adam öldürmənin xüsusilə ağır halları isə Cinayət Məcəlləsinin 120.2-ci maddəsində sadalanır: məsələn, bir qrup şəxs tərəfindən, xüsusi amansızlıqla, ümumi təhlükəli üsulla, tamah məqsədi ilə, sifarişlə, iki və ya daha çox şəxsi öldürmə, milli, irqi, dini ədavət və ya düşmənçilik motivi ilə və s. törədildikdə bu əməllər xüsusilə ağır cinayət kimi qiymətləndirilir və 15 (on beş) ildən ömürlük azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə cəzası tətbiq oluna bilər.

Cəzanın konkret həddi isə cinayətin törədilmə şəraiti, motivi, üsulu və digər ağırlaşdırıcı və yüngülləşdirici hallar nəzərə alınmaqla müəyyən edilir.



Cinayət Məcəlləsinə əsasən, qəsdən adam öldürmə cinayətinə görə yetkinlik yaşına çatmayan şəxslər üçün xüsusi cəza və məsuliyyət qaydaları tətbiq edilir. Belə ki, cinayət törədərkən 14 (on dörd) yaşı tamam olmuş, lakin 18 (on səkkiz) yaşına çatmayan şəxslər yetkinlik yaşına çatmayanlar hesab olunur və onlara cəza təyin edilərkən cəzanın növləri və müddəti məhdudlaşdırılır; azadlıqdan məhrum etmə cəzası 10 (on) ildən çox ola bilməz və cəza xüsusi tərbiyə müəssisələrində çəkilir. Cinayət Məcəlləsinə əsasən, ömürlük azadlıqdan məhrum etmə qadınlara, cinayət törədərkən 18 (on səkkiz) yaşı tamam olmamış şəxslərə, habelə hökm çıxarılanadək 65 (altmış beş) yaşına çatmış kişilərə təyin edilmir. Məhkəmələr cinayətin bütün hallarını, təqsirkarın və zərərçəkmişin xüsusiyyətlərini nəzərə alaraq cəza təyin edirlər".

***Günel Fərzəliyeva***

# Tarixin amansız soyqırımları

*Fakt ondan ibarətdir ki, dünya tarixində çoxsaylı soyqırımı aktları, qətliamlar həyata keçirilib. Bu gün də müasir dövr olmasına baxmayaraq insan qanı axıdılır, şəhər və kəndlər yerlə yeksan olunur. Qətliamları dayandıran isə yoxdur. Çünki amansız vəhşilikləri törədənlər elə özlərini dünyanın güc mərkəzi kimi təqdim etməyə çalışan aparıcı dövlətlərdir. Eramızdan əvvəl V əsrdə yaşamış Yunan tarixçisi Fukidid baş verən qətliamlarla bağlı əsərlərində qeyd etmişdir ki, Pelopennes müharibəsi (431-404) zamanı afinalılar Melos adası sakinlərini son nəfərinədək məhv etmişdir. 849-cu ildə Salbların Bərdəyə hücumu zamanı 20 mindən çox insan öldürülmüşdür.*

1221-ci ildə Çingiz xan tarixin ən dəhşətli soyqırımı aktı hesab olunan Nişapur faciəsini törətmişdir. Qaladan atılan bir oxla kürəkəninin öldürülməsindən qəzəblənən Çingiz xan Nişapurun 1, 7 milyonluq əhalisini tamamilə qətlə yetirilmişdir. Cəmi 1 saat çəkən qətliam zamanı insanlıq tarixinin ən dəhşətli halı yaşanmışdır. Belə ki, əmrə əsasən Nişapurda insanlarla yanaşı heyvanlar, quşlar da qılıncdan keçirilmişdir. Araşdırmalara görə, hər bir dəqiqədə 29 min insan öldürülüb. Ümumilikdə Çingiz xanın hökümranlığı dönəmində monqollar 40 milyona yaxın insan öldürüblər. Soyqırımı anlayışının hüquqi mənası BMT Baş Assambleyasının 9 dekabr 1948-ci il tarixli 260 A saylı qətnamə ilə qəbul etdiyi "Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalar haqqında" Konvensiya ilə müəyyən edilmişdir ki, hər hansı milli, etnik, irqi və ya dini qrupların tam və ya qismən məhv edilməsi niyyəti ilə aşağıdakı hərəkətləri bildirir: - belə bir qrupun üzvlərinin qətlə yetirilməsi; - belə bir qrupun üzvlərinə ciddi bədən xəsarətləri və əqli poçüunluq yetirilməsi; - hər hansı belə bir qrup üçün qəsdən onun tam və ya qismən məhvinə hesablanmış həyat şəraitinin yaradılması; - belə bir qrup arasında uşaq doğumunun qarşısının alınmasına hesablanmış tədbirlər; - uşaqların zorakılıqla bir insan qrupundan digərinə verilməsi. Soyqırımı cinayəti üçün xüsusi niyyətin olması zəruri element sayılır. Bu obyektiv soyqırımı cinayətinin digər analoji beynəlxalq cinayətlərdən fərqləndirir. Soyqırımı cinayətini təşkil edən əməllərdən hər biri şüurlu və əvvəlcədən düşünülmüş olur. Bu əməllər heç bir halda təsadüf və ya ehtiyatsızlıq nəticəsində törədilə bilməz. Soyqırımı cinayətinin təhlili zamanı onun 3 əsas hissəsi üzə çıxarır: - məlum, milli, etnik, irqi və ya dini qrupun varlığı; - belə bir qrupun tamamilə və ya qismən məhv edilməsi niyyətinin olması. Soyqırımı qurbanlarmın müəyyən edilməsinin həlledici əlaməti onların fərdiliyi deyil, məhz onların qrupa mənsubluğudur; - niyyət qrupun məhv edilməsindən ibarət olmalıdır. Soyqırımı bütöv bir insan qrupunun mövcudluq hüququnu tanımaqdan imtina etməkdir. Ayrıca bir insanın qətlə yetirilməsi (soyqırımı) ayrıca bir fərdin yaşamaq hüququnu tanımaqdan imtina kimi xarakterizə olunur.

### Beynəlxalq hüquq normalarını pozan canilər

İlk dəfə olaraq, kütləvi insan qətliamlarının soyqırımı sayılması təklifini 1933-cü ildə yəhudi əsilli polşalı hüquqşünas Rafael Lemkin İspaniyada keçirilən cəza hüququnun eyniləşdirilməsinə dair V beynəlxalq konfransda irəli sürmüş və uzun müzakirələrdən sonra təklifini qəbul etdirə bilmişdir. Sonradan, yəni müharibənin Almaniyanın məğlubiyyəti ilə başa çatmasından sonra Nürnberq Beynəlxalq Hərbi Tribunalı nasistləri "insanlıq əleyhinə cinayətlərin" törədilməsi barədə qərar qəbul etdi. Qərarda "genosid" sözü ittihamnamə aktma daxil edildi. "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli qətnaməsi qəbul edilmişdir.









Konvensiya 19 maddədən ibarətdir. İndiyədək dünyanın 153 ölkəsi bu Konvensiyanı ratifikasiya etmişdir. 31 may 1996-cı ildə Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev tərəfindən imzalanmış qərarla bu Konvensiyaya qoşulduğunu bəyan etmişdir. 25 iyun 1996-cı ildə isə Azərbaycan parlamenti bu qanunu ratifikasiya etmişdir. Konvensiya soyqırımını beynəlxalq hüquq normalarını pozan cinayət əməli kimi tövsif etmişdir. Həmin Konvensiyanın 1-ci maddəsində qeyd olunur ki, razılığa gələn tərəflər sülh və yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq soyqırımı, beynəlxalq hüquq normalarını pozan cinayət olduğunu təsdiq edirlər və bu cinayətin qarşısını almaq və cəza tədbirlərini həyata keçirmək öhdəliyini götürürlər. Bu sənədi imzalamış dövlətlər soyqırımının qarşısını almaq üçün tədbirlər görmək və ona görə cəzalandırmaq öhdəliklərini öz üzərlərinə götürmüşlər.

### Xocalı soyqırımı tarixin ən dəhşətli qətliamıdır

Faktlara əsasən demək olar ki, Ermənistanın işğalçılıq siyasəti zamanı minlərlə azərbaycanlı qətlə yetirilmişdir. Ən dəhşətli soyqırımı aktı isə Xocalıda törədilmişdir. 7 min əhalisi olan şəhər tamamilə dağıdılmış və yüzlə insan qətlə yetirilmişdir. 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Xocalı şəhərində törətdikləri kütləvi insan qətliamı soyqırımı aktları kateqoriyasına aiddir. Xocalı soyqırımı əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada dayanır. Ermənilərin törətdiyi bu soyqırımı nəticəsində 613 nəfər azərbaycanlı, o cümlədən, 63 azyaşlı uşaq, 106 qadın, 70 qoca qətlə yetirilmişdir. 8 ailə bütövlükdə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmiş, 487 nəfər yaralanmış, onlardan 76-sı uşaq, 1275 dinc sakin əsir götürülmüş, 150 nəfər isə itkin düşmüşdür. Xocalı hadisələrini beynəlxalq hüquq əsasmda soyqınmıı cinayəti aktı kimi tövsif etməyə imkan verir: 1. BMT Baş Assambleyası tərəfindən 260 A (III) saylı qətnamə ilə qəbul edilmiş 9 dekabr 1948-ci il tarixli "Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalar" Konvensiyası. 2. Nörnberq Hərbi Tribunalmın Nizamnaməsi. 3. Beynəlxalq Cinayət Tribunalınm Yuqoslaviya üzrə Nizamnaməsi (maddə 4). 4. Beynəlxalq Cinayət Tribunalınm Ruanda üzrə Nizamnaməsi (maddə 1). 5. Beynəlxalq Cinayət Məhkəməsinin statusu (maddə 6). 6) Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (maddə 103). 7) Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərmanı. Beləliklə, Xocalı şəhərində əhaliyə - ermənilər tərəfindən etnik azərbaycanlılara qarşı törədilmiş hərəkətlər beynəlxalq hüquqi sənədlərə uyğun olaraq soyqırımı kimi tövsif olunur və beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq bəşəriyyətə qarşı cinayətdir.

Xocalı soyqırımı şahidlərinin ifadələrindən və aparılan araşdırmalar zamanı məlum olmuşdur ki, ermənilər tərəfindən qətlə yetirilmiş azərbaycanlı uşaqların sinəsi yarılıb ürəkləri parçalanmış, əksər meyitlər isə tikə-tikə doğranmışdır. Təbii ki, bu cinayət cəzasız qalmamalı idi və belə də oldu. 2023-cü il sentyabrın 19-da başlayan və cəmi 23 saat çəkən antiteror əməliyyatları ilə baş cəlladlardan olan Arutunyan, Saakyan, Qukasyan, Vardanyan və digərləri həbs edilərək istintaqa təhvil verildilər. Artıq onlar məhkəmə qarşısına çıxarılaraq layiq olduqları cəzaları alıblar. Əsas vəhşilər isə hələ ki, gizlənirlər.

Bir gün Xocalıda uşaqları öldürən, ailələri məhv edən Koçaryan və Sarkisyan da məhkəmə qarşısına çıxarılacaqlar. İngilis jurnalisti Tomas de Val "Qarabağ" kitabında konkret olaraq göstərir ki, Xocalı soyqırımının törədilməsi ilə bağlı Serj Sarkisyana sual etdikdə, o, Xocalı soyqırımını bilərəkdən törətdiklərini etiraf edib: "Serj Sarkisyan dedi ki, azərbaycanlılar elə bilirdi ki, zarafat edirik, biz Xocalıda heç bir cinayət törətməyəcəyik. Amma biz azərbaycanlılara sübut etdik ki, bunu bacarırıq".

Uşaq qatilləri Sarkisyan, Koçaryan mütləq və mütləq məhkəmə qarşısına çıxarılacaqlar. Necə ki, Qarabağda 30 il terror fəaliyyəti ilə məşğul olmuş erməni hərbi canilər həbs edilərək layiqli cəzalarını aldılar. Eləcə də Sarkisyan, Koçaryan və digər uşaq qatilləri də cəzadan heç zaman yayına bilməyəcəklər. Harada olmalarından, hansı məkanda gecələmələrindən asılı olmayaraq günün birində həbs olunaraq törətdikləri vəhşiliklərə görə cavab verəcəklər.

***İ.ƏLİYEV***

# Müasirlik...

***Paltar çox vacib amildir, bunu bilirik. Lakin onu da bilirik ki, içindəkinə əsla təsiri yoxdur. İstəyirsən zər-ziba geyin, nəsənsə, osan. Dəyişməyəcəksən. İstəyirsən də ən ucuzlu, dəbsiz bir paltar geyin, yenə də dəyişməyəcək, əgər içindəki dəyərli insandırsa. İnsanı geyiminə görə qarşılayıb, ağlına görə yola salarlar deyiminin də elə bu mənada yarandığı sözsüzdür.***

Lakin nə məsələdirsə, "nə geyinim?" dərdi həmişə insan övladının elə birinci dərdi-səri olub. Yox, deyəsən burada bir az səhv etdim. Çünki ta indi "nə geyinim?" dərdi yoxdur, səbəbi hazırda əksər insanın geyinməkdən çox soyunmağa üstünlük verməsidir. Məsələn, vaxt var idi ki, kişilər şalvar geyinərdilər əyinlərinə. Bu məqamda "Kəlilə və Dimnə" kitabından belə bir hekayəti də xatırlamaq yerinə düşər. Çox qısa söyləyəcəyəm. Qədim zamanlarda belə bir hadisə olub ki, hansısa mahalda gecə qapı döyülərmiş, evin kişisi qapını açar, bununla da yoxa çıxarmış. Sabahı gün məlum olarmış ki, filankəs gecə yoxa çıxıb. Həmin qapı döymələr davam edir. Beləliklə, günlərdən birində bir kişinin də qapısı döyülür və o, başqalarından fərqli olaraq evinə qayıdır, yoxa çıxanlardan olmur. Səbəb bu olur ki, o biri kişilər gecə qapıları döyüləndə qapıya paltarsız çıxırmışlar, lakin bu kişi qapının

## FELYETON

fasiləsiz döyülməsinə baxmayaraq paltarını geyinir ki, birdən olar, təcili hara isə çağırarlar, qoy hazırlıqlı olum. Bu yüksək keyfiyyəti onu ölümün pəncəsindən qurtarır. Həmin kişini aparıb özündən əvvəl qapıya çılpaq çıxan kişilərin hansı işgəncələrə məruz qaldıqlarını göstərib sonra evinə qaytarırlar.

Hə, deməli, paltarın belə önəmli çağları da olub. İndi kişilər var ki, nəinki gecə, günün günorta çağında paltarsız gəzirlər. Qısa şortlar, qolsuz köynəklər, vəssalam. Adı da ya dəbdir, ya da istidir... Qaldı qadınlarımıza, Həzrəti Məhəmməd peyğəmbərin, qadın elə geyinməlidir ki, bədən cizgiləri



bilinməsin, buyurmasına baxmayaraq indi əksər qız-qadınlarımız da kişilər kimi bir qarış paltarla kifayətlənirlər. Qısa ətək, qısa şort, şalvarda baldırdan başlayan iri kəsiklər, qısa köynəklər onların qarın-göbəyini, qıç-qolunu qoyub bayırda. Çıxdınmı küçəyə, vəssalam. Film başlayır. Əvvəllər belə filmlərə tamaşa etmək üçün gərək vaxt ayırardın, gedib bilet alardın, əziyyət çəkib nə qədər yol gedib kinoteatrda film izləyərdin. Lakin indi buna əsla ehtiyac yoxdur.

Çıx küçəyə, başla tamaşaya. Ey fani dünya, sən bu günlərəmi qalacaqdın? Heyf səndən. Səni niyə bu günə saldılar? Kimlər saldı, niyə saldı, nə məqsədlə saldı, bilmirəm, amma heyf səndən. Heyf səndən keçən kişilərdən ki, qız-qadın yanında qıçqollarını çırmayıb dəstəmaz almazdılar ki, ayıbdır. Heyf o kişilərə ki, çöldə ot biçəndə, əkin əkəndə istidən bişsələr də, köynəklərini çıxarmazdılar ki, birdən yan-yörədə qızgəlin olar.

Heyf, heyf, heyf... Heyf səndən ey dünya, sən nə üçün bu günlərə qaldın? Heyf səndən keçən qadınlara ki, ətəyi dabanında, köynəyinin qolu əlinin üstündə bitərdi, yad kişi görəndə yaşmağı gözlərinin altınadək qaldırardı. Heyf, heyf, heyf... Zaman keçib, dünya dəyişib, müasirləşib. Çox heyf ki, biz insanlar da kişili-qadınlı çox dəyişmişik, çox da "müasirləşmişik"...

***Mətanət Məmmədova***

# WUF13: hazırlıqlar necə gedir?




***Qlobal Şəhərsalma Forumunda iştirak edəcək 28.000-dən çox qonağın iştirakı ilə Bakıda keçiriləcək WUF13 (World Urban Forum) üçün son hazırlıqlar gedir. Azərbaycan infrastruktur, təhlükəsizlik və ziyarətçi xidmətləri sahəsində var qüvvəsi ilə çalışır. 40 əsas sessiyanın keçiriləcəyi və 350 tərəfdaşın rəhbərlik etdiyi tədbirdə 28.000-dən çox iştirakçının və təxminən 1000 media nümayəndəsinin iştirakı gözlənilir.***

Təşkilatçılar Olimpiya Stadionunu genişmiqyaslı konfrans məkanına çevirirlər, nəqliyyat orqanları isə mobilliyi artırmaq üçün avtobus zolaqlarını və elektrik parklarını genişləndirirlər. Polis təhlükəsizlik tədbirlərini və rəqəmsal monitorinq sistemlərini artırır, turizm orqanları isə ölkənin mədəni abidələrini nümayiş etdirmək üçün xüsusi turlar hazırlayır.

World Urban Forum 13, yəni Dünya Şəhərsalma Forumu BMT-nin ən böyük urbanizasiya və şəhər inkişafı platformalarından biridir. Forum UN-Habitat tərəfindən təşkil olunur və dünyanın müxtəlif ölkələrindən dövlət rəsmilərini, memarları, şəhərsalma mütəxəssislərini, investorları, alimləri və QHT-ləri bir araya gətirir. World Urban Forum (WUF) ilk dəfə 2001-ci ildə BMT tərəfindən yaradılıb. Məqsəd sürətlə urbanizasiya olunan dünyada şəhərlərin problemlərini və gələcəyini müzakirə etməkdir.

Forumda əsasən davamlı şəhərlər, mənzil və yaşayış problemləri, iqlim dəyişikliyi və şəhərlər, ağıllı şəhər texnologiyaları, nəqliyyat və infrastruktur, yaşıl enerji və ekologiya, sosial bərabərlik və təhlükəsiz şəhərlər, müharibədən sonra şəhərlərin bərpası müzakirə olunur.

World Urban Forum 13-ə qədər keçirilən Dünya Şəhərsalma Forumları dünyanın müxtəlif şəhərlərində təşkil olunub. İlk forum 2002-ci ildə Keniyanın paytaxtı Nairobi şəhərində keçirilib. Daha sonra forum İspaniyanın Barselona, Kanadanın Vankuver, Çinin Nankin, Braziliyanın Rio-de-Janeyro və İtaliyanın Neapol şəhərlərində davam etdirilib. Sonrakı illərdə Kolumbiyanın Medellin, Ekvadorun Kito, Malayziyanın Kuala Lumpur, BƏƏ-nin Əbu-Dabi, Polşanın Katovitse və Misirin Qahirə şəhərləri forumun ev sahibi olub. 2026-cı ildə isə 13-cü Dünya Şəhərsalma Forumu ilk dəfə olaraq Bakı şəhərində keçiriləcək.

Bu forumların hər biri urbanizasiya, davamlı şəhər inkişafı, yaşayış problemləri, iqlim dəyişikliyi və ağıllı şəhər texnologiyaları kimi mövzulara həsr olunub və müxtəlif ölkələrin şəhərsalma təcrübələrinin paylaşılması üçün beynəlxalq platforma rolunu oynayıb.

WUF13 Azərbaycanın beynəlxalq imicinə və şəhərsalma siyasətinə müsbət mənada ciddi təsir göstərə bilər. Xüsusilə də Qarabağ və Şərqi Zəngəzurda yaradılan "ağıllı şəhər" layihələrinin tanıdılması, Bakının regional urbanizasiya mərkəzi kimi təqdim olunması xarici investorların diqqətinin Bakıya cəlb edilməsi baxımından önəmlidir. Adətən belə beynəlxalq forumlarda müxtəlif dövlət rəhbərləri, nazirlər, BMT nümayəndələri, memarlar və urbanistlər, Dünya Bankı və beynəlxalq fondlar, tikinti və texnologiya şirkətləri, ekoloqlar və şəhər aktivistləri iştirak edirlər.

WUF-un əsas məqsədi şəhərləri daha yaşıl, daha təhlükəsiz, daha əlçatan, daha humanist etmək üçün müxtəlif ölkələrin təcrübəsini bölüşməkdir. Forumda qəbul olunan qərarlar hüquqi məcburiyyət daşımır, amma dünya urbanizasiya siyasətinə ciddi təsir göstərir. Xüsusilə COP29-dan sonra Azərbaycanın növbəti böyük qlobal platformaya ev sahibliyi etməsi dövlətimizin beynəlxalq imici üçün olduqca vacibdir.

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.***

# Mərkəzi Gömrük Hospitalında "Tibbi genetikada bildiklərimiz və yeniliklər" mövzusunda elmi seminar keçirilib





***12 may 2026-cı il tarixində Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin və Mərkəzi Gömrük Hospitalı-ın birgə təşkilatçılığı ilə "Tibbi genetikada bildiklərimiz və yeniliklər" mövzusunda elmi seminar keçirilib.***

Tədbirdə Mərkəzi Gömrük Hospitalının rəisi- Baş həkim Bəxtiyar Musayev, rəis müavini Nahidə Mahmudova, Poliklinika şöbəsinin rəisi Tamilla Əliyeva, şöbə rəisləri, həkimlər və həkim rezidentlər iştirak ediblər.

Tədbirdə salamlama nitqi ilə çıxış edən baş həkim Bəxtiyar Musayev tibbi genetikanın müasir səhiyyədə artan rolundan bəhs edərək, xüsusilə erkən diaqnostika, fərdiləşdirilmiş müalicə yanaşmaları və reproduktiv sağlamlıq sahəsində genetik tədqiqatların əhəmiyyəti, vurğulayıb. Baş həkim Bəxtiyar Musayev qeyd edib ki, müasir tibbin inkişafı genetik elmlərin klinik praktikaya inteqrasiyası ilə daha da sürətlənir və bu sahədə əldə olunan yeniliklər həkimlərin gündəlik fəaliyyətində mühüm dəstək rolunu oynayır.

Tədbirdə tibbi genetika sahəsinin müasir çağırışları, reproduktiv sağlamlıqda genetik skrininqin rolu və yeni nəsil molekulyar diaqnostika metodlarının klinik praktikada tətbiqi barədə ümumi məlumat verilib. Seminarın elmi hissəsində tanınmış mütəxəssislər çıxış ediblər. İlk olaraq Dr. İlya Kanivets "Preqravidal hazırlığa genetik baxış" mövzusunda məruzə ilə çıxış edərək, ailə planlamasında genetik risklərin qiymətləndirilməsi və erkən diaqnostikanın əhəmiyyətini vurğulayıb.

Daha sonra Dr. Kəmalə Hüseynova "Sağlam hamiləlik üçün ümid: PGD-NGS və NIPT-NGS" mövzusunda təqdimat edərək, preimplantasiya genetik diaqnostika və qeyri-invaziv prenatal testlərin müasir tibbdə tətbiqi, eləcə də yüksək riskli hamilələliklərin idarə olunması barədə ətraflı məlumat verib.

Seminarın növbəti məruzəçisi Leyla Abbasova "Genetik testlər üçün düzgün preanalitik hazırlığın əhəmiyyəti (PGT-A, NIPT, WES)" mövzusunda çıxış edərək, laborator diaqnostikanın keyfiyyətinə təsir edən mərhələlər və düzgün nümunə hazırlanmasının nəticələrin dəqiqliyində rolunu izah edib.

Çıxışlardan sonra tədbir iştirakçıları ilə geniş elmi müzakirələr aparılıb, mövzu ətrafında çoxsaylı suallar cavablandırılıb və tibbi genetika sahəsində yeniliklərin klinik praktikaya inteqrasiyası barədə fikir mübadiləsi həyata keçirilib. Elmi seminar yüksək elmi səviyyəsi, praktik yönümlü yanaşması və interaktiv müzakirələri ilə yadda qalıb.

# ETX kiberdələduzluq cəhdləri ilə bağlı xəbərdarlıq edib



***Son dövrlər sosial şəbəkələrdə "cərimələrin ödənilməsi", "cəriməyə endirim", "borcun bağlanılması" və oxşar məzmunlarla reklam edilən bəzi internet səhifələrinin fişinq məqsədilə istifadəsi müşahidə olunur. Bu barədə SİA-ya Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətindən (ETX) məlumat verilib. Bildirilib ki, aparılan monitorinqlər zamanı ayrı-ayrı saxta internet resurslarının rəsmi dövlət platformalarını təqlid edərək istifadəçilərin bank kartı məlumatlarını və digər fərdi məlumatlarını ələ keçirməyə cəhd edildiyi müəyyənləşib.***

ETX vətəndaşlara sosial şəbəkələrdə yayılan şübhəli reklamlara etibar etməməyi, naməlum keçidlər vasitəsilə ödəniş əməliyyatları aparmamağı, kart məlumatlarını, CVV/CVC və təsdiq kodlarını üçüncü şəxslərə paylaşmamağı, ödənişləri yalnız rəsmi və dövlət informasiya sistemləri üzərindən həyata keçirməyi, daxil olduqları internet səhifələrinin domen ünvanlarını diqqətlə yoxlamağı tövsiyə edir. Vətəndaşlara kiberdələduzluq halları ilə qarşılaşdıqda aidiyyəti qurumlara məlumat vermək məsləhət görülür.

# Özəl xəstəxanalarda qiymətləri kim və necə müəyyən edir? - ŞOK FAKTLAR!

***Özəl xəstəxanalarda qiymətlərin hansı prinsiplərlə müəyyənləşdirilməsi uzun illərdir cəmiyyətdə ən çox müzakirə olunan məsələlərdən biridir. Eyni analiz, müayinə və ya əməliyyatın müxtəlif klinikalarda fərqli qiymətlərlə təqdim olunması insanlarda haqlı olaraq suallar yaradır. Bəzən bir xəstəxanada 200 manata təqdim olunan xidmət başqa bir klinikada 800–1000 manata qədər dəyişə bilir. Bu fərqin səbəbləri isə yalnız tibbi xidmətlə məhdudlaşmır. Burada iqtisadi model, texnologiya, idarəetmə, brend siyasəti və hətta psixoloji marketinq faktorları belə rol oynayır. SİA mövzu ilə bağlı araşdırma edib.***



İlk növbədə qeyd edilməlidir ki, özəl xəstəxanalar dövlət müəssisələrindən fərqli olaraq kommersiya prinsipi ilə fəaliyyət göstərir. Yəni onların əsas məqsədi yalnız tibbi xidmət göstərmək deyil, həm də maliyyə dayanıqlığını qorumaq, investisiya xərclərini geri qaytarmaq və mənfəət əldə etməkdir. Bu səbəbdən qiymətlər formalaşdırılarkən xəstəxananın aylıq xərcləri, personal maaşları, avadanlıqların amortizasiyası, vergi ödənişləri, marketinq büdcəsi və digər iqtisadi faktorlar nəzərə alınır. Ən ciddi xərc istiqamətlərindən biri tibbi texnologiyalardır. Müasir dövrdə özəl klinikalar rəqabətdə üstünlük qazanmaq üçün ən yeni MRT, KT, PET-CT, robotik cərrahiyyə sistemləri, laparoskopik avadanlıqlar və yüksək dəqiqlikli laborator cihazlar əldə etməyə çalışırlar. Bu avadanlıqlar milyonlarla manat dəyərində olur və onların texniki servisi, proqram təminatı, ehtiyat hissələri və yenilənməsi böyük maliyyə tələb edir. Xəstəxanalar isə bu investisiyaların geri dönüşünü xidmət haqları üzərindən təmin etməyə çalışır.

Digər mühüm məsələ həkim kapitalıdır. Bu gün bir çox özəl xəstəxana əslində konkret həkimlərin reputasiyası üzərində formalaşır. Beynəlxalq təcrübəyə malik, xaricdə təhsil almış və tanınmış mütəxəssislərin xidmət haqları daha yüksək olur. Burada pasiyent yalnız tibbi prosedura görə deyil, eyni zamanda həmin həkimin bilik və təcrübəsinə görə ödəniş edir. Dünyanın bir çox ölkəsində olduğu kimi Azərbaycanda da artıq "həkim brendi" anlayışı formalaşıb.

Qiymətlərə təsir edən digər mühüm amil xəstəxananın yerləşdiyi ərazi və hədəf auditoriyasıdır. Şəhərin mərkəzində yerləşən premium klinikalar yüksək icarə, kommunal və idarəetmə xərclərinə malik olur. Bu xəstəxanalar adətən yüksək gəlirli pasiyent seqmentinə xidmət göstərir və qiymət siyasətini də buna uyğun qururlar. Bəzi özəl klinikalar isə özlərini "premium tibbi xidmət" modeli kimi təqdim etdikləri üçün komfort, dizayn, fərdi otaqlar, VIP xidmətlər və sürətli qəbul sistemi kimi əlavə imkanları da qiymətə daxil edirlər.

Burada marketinq psixologiyası da mühüm rol oynayır. Bəzi hallarda yüksək qiymət özü müəyyən etibar və keyfiyyət görüntüsü yaradır. İnsanların bir hissəsi bahalı tibbi xidməti daha keyfiyyətli hesab edir. Bu səbəbdən bəzi klinikalar qiymət siyasətini həm də prestij elementi kimi formalaşdırır. Digər vacib faktor dərman və tibbi sərfiyyat materiallarıdır. Əməliyyatlarda istifadə olunan implantlar, stentlər, protezlər, xüsusi tibbi alətlər və birdəfəlik materialların böyük hissəsi xaricdən idxal olunur. Valyuta məzənnəsindəki dəyişikliklər, logistika xərcləri və beynəlxalq bazardakı qiymət artımları birbaşa olaraq özəl xəstəxanaların tariflərinə təsir edir. Xüsusilə kardiologiya, ortopediya və neyrocərrahiyyə kimi sahələrdə istifadə olunan tibbi materiallar olduqca baha olur. Bundan başqa, özəl xəstəxanalarda xidmətin sürəti də qiymət faktoruna çevrilib. Dövlət xəstəxanalarında bəzən uzun növbələr olduğu halda, özəl klinikalar daha sürətli diaqnostika və qəbul sistemi təqdim edir. Bir çox pasiyent vaxt itkisini azaltmaq üçün daha yüksək məbləğ ödəməyə razı olur. Yəni burada insan faktiki olaraq həm tibbi xidmətə, həm də zamana görə ödəniş edir.

İcbari tibbi sığorta sistemi də qiymət siyasətinə təsir edən əsas mexanizmlərdən biridir. Azərbaycanda müəyyən xidmətlər üzrə dövlət tarifləri mövcuddur və bəzi özəl klinikalar bu sistemə qoşularaq xidmət göstərirlər. Lakin sığortaya daxil olmayan xidmətlərdə xəstəxanalar sərbəst qiymət siyasəti tətbiq edə bilir. Bu isə bazarda qiymət fərqlərinin daha da artmasına səbəb olur.



Digər mühüm məsələ şəffaflıq problemidir. Bəzi hallarda pasiyentlərə ilkin mərhələdə tam qiymət təqdim olunmur və proses zamanı əlavə analizlər, konsultasiyalar və prosedurlar ümumi məbləği artırır. Bu da cəmiyyətdə özəl səhiyyə sektoruna qarşı narazılıq yaradan əsas səbəblərdən biridir. Bir sıra ekspertlər hesab edir ki, gələcəkdə özəl səhiyyə sektorunda qiymətlərin daha şəffaf formada təqdim olunması hüquqi baxımdan daha ciddi tənzimlənə bilər.

Dünyada olduğu kimi Azərbaycanda da səhiyyə artıq yalnız tibbi xidmət sahəsi deyil, böyük iqtisadi sektor hesab olunur. Bu sektor daxilində rəqabət, texnologiya yarışı və investisiya mühiti qiymətlərin formalaşmasına birbaşa təsir edir. Xüsusilə süni intellekt, telemedicina, rəqəmsal diaqnostika və fərdiləşdirilmiş müalicə modelləri yaxın illərdə səhiyyədə yeni qiymət mexanizmlərinin yaranmasına səbəb olacaq. Ekspertlər hesab edir ki, gələcəkdə tibbi xidmətlərin qiymətləndirilməsi yalnız prosedurun özünə görə deyil, nəticə əsaslı model üzərindən qurula bilər. Yəni xəstəxanalar göstərdikləri xidmətin effektivliyinə, pasiyent məmnuniyyətinə və müalicə nəticələrinə görə qiymətləndirilə bilər. Bu isə səhiyyə sektorunda həm rəqabəti, həm də xidmət keyfiyyətini artıran əsas amillərdən biri hesab olunur.

***Ayşən Vəli***

ARAŞDIRMA

**"SƏS" qəzetinə abunə kampaniyası davam edir!**



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
sesmediaqrup@gmail.com
sesqazeti@gmail.com

"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR

Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur
Tiraj: 2000